# Heydər Əliyev fenomeni

Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri müqayisə olunmayacaq dərəcədə böyük, çoxşaxəli və qiymətlidir. Heydər Əliyev təkcə tarixi şəxsiyyət, yaxud böyük dövlət xadimi deyil, eyni zamanda bu dövlətin - müstəqil Azərbaycanın banisi və qurucusudur. Məhz Heydər Əliyevin siyasi dühası, iradəsi, enerjisi, təcrübəsi kimi mühüm keyfiyyətləri, yorulmaz fəaliyyəti, xalqına və Vətəninə sevgisi sayəsində müstəqil Azərbaycan dövləti quruldu, möhkəmləndi və əbədilik qazandı.

XX əsrin ən böyük siyasətçilərindən biri, dünya azərbaycanlılarının lideri, xalqımızın böyük oğlu Heydər Əliyev qeyri-adi zəkaya - təfəkkürə, qabiliyyətə malik olan dahi bir şəxsiyyət idi. Tarixin yazılmasında tarixçilərin böyük əməyi olduğu kimi, tarixi hadisələrin ərsəyə gəlməsində də tarixi şəxsiyyətlərin rolu böyükdür. Azərbaycan və Heydər Əliyev adları əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə, yaddaşlarda əbədi yaşayacaqdır.

Ümummilli liderimizin şəxsiyyəti və fəaliyyətinin mahiyyətinin dərk olunması 40 ilə yaxın müddətdə Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə mürəkkəb problemlərin həlli yollarına işıq salmışdır. Ulu öndərin mənalı və şərəfli ömür yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir.

Heydər Əliyev Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli ideallara bağlı olmuşdur. Bu dahi şəxsiyyət zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, tarixi hadisələrin məcrasını qabaqcadan müəyyən edə bilmişdir.

Müstəqil Azərbaycan dövlətinin təşəkkül tapması, şübhəsiz ki, ümummilli lider, dünya miqyaslı dahi şəxsiyyət Heydər Əliyevə məxsusdur. Bugünkü azad və suveren Azərbaycan ulu öndərin şah əseridir.

1969-cu ildə Azərbaycanın rəhbəri seçilən Heydər Əliyev bir sıra çətinliklərlə üzləşməli oldu. Üstəlik də respublika iqtisadiyyatında sözün əsl mənasında, ağır vəziyyət yaranmışdı. Heydər Əliyev ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi həyatı ilə bağlı məsələlər qaldırıldı və qısa vaxt ərzində Azərbaycan Respublikasında tərəqqiyə nail olundu.

Heydər Əliyev əsl liderə məxsus olan keyfiyyətlərdən uğurla istifadə edərək respublika hökumətini, bütün idarəetmə strukturlarını iqtisadiyyatda yaranmış geriliyin aradan qaldırılması işinə səfərbər etdi. Məqsəd və vəzifələr dəqiqləşdirildi, idarəetmə strukturlarına təcrübəli şəxslər cəlb edildi, strateji məqsədlərə çatmaq yolları və vasitələri müəyyənləşdirildi. Bir sözlə, respublika iqtisadiyyatında qaynar həyatın formalaşması üçün bütün imkanlar və vəzifələr hərəkətə gətirildi, ittifaq miqyasında Azərbaycan liderlər sırasına yüksəldi.

1993-cü ilin may-iyununda ölkədə vəziyyət son dərəcə kəskinləşmişdi, ölkəmizin müstəqilliyinin itirilməsi təhlükəsi yaranmışdı, xalq yenidən Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edirdi. Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev yenidən Azərbaycana hakimiyyətə qayıtdı. Respublikanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın tarixi-iqtisadi xüsusiyyətlərinə, xalqın mentalitetinə, geopolitik şəraitinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırlandı, düşünülmüş və əsaslandırılmış sistemli tədbirlər həyata keçirildi. Beynəlxalq təşkilatlar, inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşması, iqtisadi islahatların aparılması prioritet vəzifə olaraq müəyyən edildi.

Müstəqil dövlətin inkişaf strategiyasında dövlət quruculuğu sivil demokratik cəmiyyətin, yeni iqtisadi sistemin hüquqi bazasının formalaşması prosesi beynəlxalq hüquq normaları, qarşılıqlı əməkdaşlıq prinsipləri ilə əlaqələndirildi. Respublikada iqtisadi, investisiya mühitinin yaxşılaşması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Beləliklə, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla ölkənin yeni inkişaf dövrünün əsasını qoydu.

Ümummilli lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin iradəsi və möhkəm dövlətçilik əzminin, qətiyyətli və ardıcıl siyasətinin nəticəsi olaraq 1994-cü il sentyabrın 20-də qlobal dünya iqtisadiyyatında möhtəşəm layihə - "Əsrin müqaviləsi" reallaşdı. Müstəqil Azərbaycan Respublikası ilə dünyanın neft şirkətləri arasında imzalanmış müqavilə məhz öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almışdır.

Bu saziş həmçinin, Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı. Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə ixrac marşrutlarının diversifikasiyasına nail olundu.

Dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında referendum yolu ilə qəbul olunmuş Azərbaycanın ilk Milli Konstitusiyası ölkəmizin gələcək inkişaf yolunu müəyyən etmişdir. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ölkəmizin demokratik inkişafı yolunda əldə etdiyi ən böyük dəyərlərdəndir. Azərbaycanın Milli Konstitusiyasında mənəvi sərvətlərimizə, tarixi irsimizə hörmət dövlət səviyyəsinə qaldırıldı. Bununla da, milli dövlətçilik, demokratiya və dünyəvilik kimi ümumbəşəri dəyərləri özündə ehtiva edən yeni bir ideologiyanın əsası qoyuldu.

Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyinin banisidir. Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə 2001-ci ilin noyabrında Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmiş, xaricdə yaşayan həmvətənlərimizin monolit qüvvəyə çevrilməsi üçün qarşıya mühüm vəzifələr qoyulmuşdur.

Türkiyə Respublikasının sabiq prezidenti Süleyman Dəmirəl ulu öndər haqqında demişdir: "Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri məhz bu ölkədə sabitliyin yaradılması, asayişin bərqərar olmasıdır. Bu, asan iş deyildi...".

Heydər Əliyevin öz xalqı qarşısında ən böyük xidmətlərindən biri də müəyyənləşdirdiyi inkişaf kursunu özündən sonra davam etdirə biləcək siyasi varis yetişdirməsidir. O, 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu gün qürur hissi ilə qeyd etmək olar ki, cənab Prezident İlham Əliyev ona olan bu ümidləri layiqincə doğruldur. 2020-ci ildə Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, sərkərdəlik məharəti sayəsində 44 gün ərzində erməni faşistləri ağır məğlubiyyətə uğradı, 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız azad olundu.

Bu günlərdə Türk dünyasının mədəniyyət mərkəzi olan Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı keçirildi. Prezident İlham Əliyevin qurultaydakı nitqi həmvətənlərimizin vahid ideya ətrafında birləşməsində, milli diasporumuzun mütəşəkkil qüvvəyə çevrilməsində mühüm rol oynayacaqdır.

**Ceyhun MƏMMƏDOV,**
**"Azpetrol LTD" MMC-nin**
**baş direktoru,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**